# Naxçıvan inkişaf etmiş sənaye diyarına çevrilir

**Naxçıvan Muxtar Respublikasının sənaye potensialının hərəkətə gətirilməsi üçün son illərdə həyata keçirilmiş məqsədyönlü proqram və layihələr artıq bəhrəsini verir. Naxçıvan sürətlə inkişaf etmiş sənaye diyarına çevrilir.**



Bölgədə sənayenin davamlı inkişafına əsaslanan inkişaf strategiyasının düzgün seçilməsi, sahibkarlığın inkişafı üçün yaradılmış hərtərəfli şərait, maliyyə resurslarına sərbəst çıxış müsbət nəticələrin qazanılmasına geniş imkanlar açıb. Eyni zamanda, sosial infrastruktur obyektlərinin tikilərək istifadəyə verilməsi, sənaye zonalarının yaradılması, iqtisadiyyatda çoxşaxəliliyin təmin edilməsi sahibkarlığın inkişafına əlavə stimul verməklə yanaşı, regionun investisiya cazibədarlığının yüksəlməsinə də səbəb olub.

Hər il rəqabətədavamlı məhsul istehsal edən müəssisələrin sayı artır, ixrac bazarlarının coğrafiyası genişlənir. Təsadüfi deyil ki, hazırda təkcə Naxçıvan şəhərində 100-dən artıq ixtisaslaşmış müəssisədə müxtəlif profilli sənaye məhsulları istehsal edilir. Onlar arasında meyvə şirələrindən tutmuş mebelə, daş məhsullarından avtomobillərə, quş ətindən plastik məmulatlara kimi yüzlərlə növ və çeşiddə sənaye məhsulları var.

Son 1 ildə muxtar respublikada 142 sənaye müəssisəsi açılıb. Sənayeləşmə siyasətinə uyğun olaraq daxili tələbatın ödənilməsində yerli məhsulların payını əhəmiyyətli dərəcədə artıran və ixrac imkanlarını genişləndirən müasir sənaye müəssisələrinin yaradılması bu gün də davam etdirilir.

2022-ci ilin muxtar respublikada "Sənaye ili" elan edilməsi isə muxtar respublikada sənayeləşmə prosesinin daha sürətlə davam etdirilməsinə əlavə zəmin yaradıb. Sənaye sektorunun muxtar respublika iqtisadiyyatında prioritet istiqamət kimi qəbul edilməsi sənaye məhsullarının ümumi daxili məhsul istehsalında həcmini də xeyli artırıb.

Muxtar Respublika Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar–sentyabr aylarında sənaye məhsulu 2,4 faiz artıb, sənayenin ümumi daxili məhsul istehsalında payı 27,3 faiz təşkil edib. Söhbət 2 milyard 227 milyon manata yaxın ümumi daxili məhsul istehsalından gedir ki, bu da sənaye məhsulları bunun, təxminən, üçdə biri qədərdir. Sənayedə istehsal həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,4 faiz artıb ki, bu artım faizi də, kənd təsərrüfatı istisna olmaqla, digər bütün sahələrdən daha çoxdur. İstehsalın 94,5 faizi malların, 5,5 faizi isə xidmətlərin payına düşüb.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu ilin ilk 9 ayında muxtar respublikada dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 89 layihə üzrə istehsal və xidmət obyektləri yaradılıb, 60 layihə üzrə istehsal və xidmət obyektlərinin yaradılması isə davam etdirilir. Ümumilikdə, sənaye sahibkarlığına göstərilən dəstəyin nəticəsində bu dövrdə bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 9 milyon 792 min 700 manat kredit verilib ki, bu da bir il öncəki göstəricidən 13,6 faiz çoxdur.

Bu gün sənayedə istehsalın diversifikasiyasının genişləndirilməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli müəssisələrin fəaliyyətə başlaması artıq sənayeləşmə siyasətinin yeni mərhələyə keçid almasını göstərir ki, bu da özünü real nəticələrdə əks etdirir.

**Səbuhi HƏSƏNOV,**
**Naxçıvan**

Xalq qəzeti .- 2022.- 28 oktyabr.- S.4.